**UOT 930.22**

# ABŞ-DA YƏHUDİ LOBBİSİ

**Nigar HACIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 2 dekabr 2024; çapa qəbul edilmişdir: 12 fevral 2025; online-da çap edilmişdir: 15 may 2025.
Received: 2th of December, 2024; accepted: 12th of February, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *lobbizm, İsrail, ABŞ, İsrail lobbisi, xarici siyasət, AIPAC*

## Giriş

Cəmiyyətin maraqlarına zidd olmayan müxtəlif qrupların, təşkilatların və ictimaiyyətin özünəməxsus maraqlarının qanunverici və normativ aktlarda nəzərə alınmasını təmin etmək lobbiçiliyin əsas vəzifəsidir. Demokratik dövlətlərdə qərar qəbuletmə prosesində ən təsirli amillərdən biri lobbiçilik fəaliyyətidir. Lobbiçilik təşkilatlanmış maraqların dövlət orqanlarına və ayrı-ayrı rəsmi şəxslərə məqsədyönlü təsir göstərməsini ifadə edir. Lobbiçiliyin klassik forması şəxsi görüşlər vasitəsilə qanunvericiliyə birbaşa təsir göstərməkdən ibarətdir. Əslində isə lobbiçilik yalnız müəyyən qrupların maraqlarını müdafiə etmək deyil, həm də cəmiyyətlə hakimiyyət arasındakı münasibətləri tənzimləyən vacib bir mexanizmdir.

ABŞ-da İsrail lobbisi, ABŞ siyasətini İsrailin maraqlarına uyğun şəkildə formalaşdırmağa çalışan şəxslərdən və təşkilatlardan ibarətdir. Bu səbəbdən açıq quruluşa malik olan lobbinin çoxsaylı mərkəzləri mövcuddur və onlar bir-birindən asılı olmadan qərarvermə mexanizminə sahibdirlər. Lobbi yalnız İsrailin maraqlarını deyil, eyni zamanda ABŞ-ın Yaxın Şərqdəki strateji maraqlarına da xidmət edir. ABŞ-ın siyasi proseslərində yəhudi lobbisi uğurla iştirak edir. Nəticə etibarilə İsrail, maliyyə ehtiyaclarının ödənməsi üçün lazım olan kreditlərə və zəmanətlərə daha asan çıxış imkanı əldə edir. Bu vəziyyət lobbinin iqtisadi baxımdan da etibarlı və təsirli olduğunu göstərir.

## 1. AIPAC-ın siyasi proseslərdə yeri və rolu

Amerika siyasi sisteminə nəzər yetirdikdə, təzyiq qrupları arasında ən mühüm yeri yəhudi lobbisinin tutduğunu müşahidə etmək mümkündür. Amerika-İsrail İctimai Əlaqələr Komitəsi (AIPAC) ABŞ-ın ən güclü yəhudi lobbisi kimi tanınır və Amerika tarixində İsrailin maraqlarını müdafiə edən ən nüfuzlu lobbi təşkilatlarından biridir. Hazırda yüz mindən çox üzvü olan bu təşkilat ABŞ-da İsrailin əsas tərəfdaşı kimi fəaliyyət göstərməkdə davam edir. AIPAC, İsrailin təhlükəsizliyini və maraqlarını müdafiə etməklə yanaşı, ABŞ və İsrail arasında güclü əlaqələrin qurulmasına yönəlmiş genişmiqyaslı fəaliyyət həyata keçirir. Təşkilatın əsas məqsədi ABŞ ilə İsrail arasındakı münasibətləri və strateji tərəfdaşlığı daha da gücləndirməkdir. AIPAC hər il müxtəlif konfranslar və tədbirlər təşkil edir. Bu tədbirlərə ABŞ prezidentləri, senatorlar, konqres üzvləri və digər siyasətçilər

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* nigarhajiyeva58@gmail.com
*ORCİD*: 0009-0001-6603-7776
**https://doi.org/10.30546/25194011.2025.14.2.1018**

qatılır, onlara İsrailin maraqlarına uyğun siyasi mövqe sərgiləmək təbliğ olunur (3, s. 114).

Lobbi fəaliyyətinin güc mənbələrindən biri də İsrail tərəfdarı olan konqres işçilərindən istifadə edilməsidir. AIPAC-ın keçmiş prezidentlərindən biri olan Morris Amitay bir dəfə bu sözləri demişdi: "Konqres işçiləri arasında yəhudi əsilli olan və bəzi məsələlərə yəhudi mənsubiyyəti prizmasından baxmağa hazır olan bir çox adam var. Bütün bu insanlar elə mövqedədirlər ki, senatorlar üçün belə qərar qəbul edə bilirlər" (13). AIPAC-ın fəaliyyəti bəzən mübahisələrə səbəb olur, çünki tənqidçilər təşkilatın ABŞ siyasətində İsrailin maraqlarını önə çəkdiyini və bunun ABŞ-ın milli maraqları ilə ziddiyyət təşkil etdiyini irəli sürürlər. Bununla belə, təşkilat özünü ABŞ-ın İsraillə strateji tərəfdaşlığını dəstəkləyən bir lobbi kimi təqdim edir.

AIPAC-ın bu günə necə gəlib çatdığını və gələcəkdə hansı istiqamətdə inkişaf edə biləcəyini anlamaq üçün onun tarixinə, sponsorlarına, təsir gücünə və fəaliyyət göstərdiyi siyasi kontekstə nəzər yetirmək vacibdir. Təşkilat 1951-ci ildə Vaşinqtonda "Amerika Sionist Şurası" adı ilə yaradılmış, 1959-cu ildə isə adını dəyişdirərək AIPAC adını almışdır (4, s. 5-7). AIPAC-ın bəyan etdiyi əsas məqsəd, ABŞ Konqresində İsraillə bağlı məsələlər və qanunvericilik üzrə lobbiçilik fəaliyyətini həyata keçirməkdir. Hazırda 50 üzvdən ibarət olan və Amerikanın müxtəlif ştatlarındakı siyasi və peşəkar liderlərlə dərin əlaqələrə malik İdarə Heyəti ölkənin müxtəlif bölgələrini və siyasi spektrini əhatə edir. AIPAC mütəmadi olaraq Konqres üzvləri ilə görüşlər keçirir və öz mövqelərini paylaşa biləcəyi tədbirlər təşkil edir. Təşkilat ABŞ və İsrailin strateji maraqlarının və əxlaqi dəyərlərinin ortaq olduğunu xüsusilə vurğulayır. AIPAC radikal islamı təmsil etdiyini iddia etdiyi "Həmas", "Hizbullah" və bu təşkilatların əsas himayədarı olan İranı İsrailin mövcudluğu üçün ən böyük təhlükə kimi təqdim edir (3, s. 113).

1951-ci ildə AIPAC-ın təsis büdcəsi 50 min dollar olmuş, 1970-ci illərdən etibarən isə bu məbləğ 1,2 milyon dollara qədər yüksəlmişdir. Hal-hazırda 15 milyon dollarlıq büdcəsi ilə AIPAC siyonist lobbilər arasında lider mövqeyinə yüksəlmiş və ABŞ-ın İsrailə göstərdiyi maddi və hərbi dəstəyin əhəmiyyətli bir hissəsinin bu təşkilatın lobbiçilik fəaliyyəti nəticəsində mümkün olduğu vurğulanır (5, s. 142–143). AIPAC 2008-ci ildən bəri hər il 2 milyon dollardan artıq vəsait xərcləyərək Vaşinqtonun ən nüfuzlu lobbi təşkilatları sırasında ilk yerlərdən birini tutur. Onilliklər ərzində AIPAC rəsmiləri, siyasi şəraitdən asılı olmayaraq, Amerika-İsrail münasibətlərini gücləndirmək məqsədilə Konqresdəki hər iki partiya ilə sıx əlaqələr qurmağa çalışmışlar. ABŞ-lı bir çox siyasətçi İsrailə verilən dəstəyi müdafiə edir və AIPAC-ın maraqlarını açıq şəkildə dəstəkləyir. İsrail dövlət rəsmiləri təşkilata yardımı açıq şəkildə dilə gətirir. Keçmiş İsrail baş naziri Ariel Şaron bir zamanlar öz çıxışında belə deyirdi: "Mənə insanlar İsrailə necə kömək edə biləcəklərini soruşduqlarında onlara AIPAC-a yardım edin deyirəm" (13).

İsrailin maraqlarını ön planda tutaraq ABŞ-ın xarici siyasətində təsirini artırmağa çalışan AIPAC İranın nüvə proqramı ilə bağlı danışıqlara davamlı şəkildə müdaxilə etmişdir. Təşkilat hər siyasi sessiyada İranın nüvə təhdidini gündəmə gətirmiş, ictimai rəydən və mediadan səmərəli istifadə edərək beynəlxalq ictimaiyyətin, xüsusilə də ABŞ-ın diqqətini bu məsələyə yönəltməyə çalışmışdır (7, s. 115).

Tarixə nəzər saldıqda, AIPAC ilə ABŞ prezidenti Ronald Reyqan arasında 1981-ci ildə Səudiyyə Ərəbistanına xəbərdarlıq və nəzarət sistemlərinin satışı ilə bağlı ciddi fikir ayrılığı yaşandığını görmək olar. AIPAC bu satışa qarşı fəal şəkildə lobbiçilik aparsa da, prezident Reyqan yəhudi senatorlarla şəxsi görüşlər keçirərək, onların əleyhinə səs vermələri halında "ikiqat sədaqət" (dual loyalty) ittihamları ilə üzləşə biləcəkləri barədə xəbərdarlıq etmişdi. Reyqan bu məsələyə münasibətini çıxışlarından birində bu sözlərlə ifadə etmişdi: "Digər ölkələr Amerikanın xarici siyasətini müəyyən edə bilməzlər" (15).

1991-ci ilin payızında ABŞ prezidenti Corc H.V.Buş ilə İsrail arasında, AIPAC-ın da dəstəklədiyi tarixi bir ictimai qarşıdurma yaşandı. Buş İsrailə hərbi və iqtisadi yardımın

göstərilməsini işğal olunmuş ərazilərdə yaşayış məntəqələrinin tikintisinin məhdudlaşdırılması şərti ilə əlaqələndirən ilk ABŞ prezidenti oldu. 1991-ci ilin sentyabrında keçirilən mətbuat konfransında Buş AIPAC-ı kredit zəmanətləri ilə bağlı həyata keçirdiyi lobbiçilik fəaliyyətinə görə açıq şəkildə tənqid etdi (15).

AIPAC ilə prezident Barak Obama arasında da münasibətlərdə gərginlik yaşanmışdır. Təşkilat Obamanın imzaladığı diplomatik təşəbbüs olan İranın nüvə sazişinə qarşı genişmiqyaslı kampaniyaya başlayaraq reklam və lobbiçilik fəaliyyətlərinə təxminən 30 milyon dollar xərcləmişdir.

Donald Trampın prezidentliyi dövründə isə vəziyyət daha sabit olmuşdur. Trampın İsrailə yönəlik siyasəti AIPAC və onun tərəfdarları tərəfindən yüksək qiymətləndirilmişdir.

Digər tərəfdən, bəlkə də AIPAC ilə bu qədər yaxın siyasi baxışlara malik olan başqa bir ABŞ prezidenti və ya hər hansı partiyadan çıxmış siyasətçi tapmaq çətindir. Prezident Co Bayden də AIPAC kimi, vaxtilə Ronald Reyqanın Səudiyyə Ərəbistanına müasir silahlar satmasına qarşı çıxmış və daha sonra prezident Corc H.V.Buşun kredit zəmanətləri ilə bağlı mövqeyinə cavab olaraq, ABŞ-ın İsrailə yardımını qeyd-şərtsiz davam etdirməyə yönəlmiş qanun layihəsinin həmmüəllifi olmuşdur (16).

Amerika və İsrail münasibətlərini böyük ölçüdə müəyyənləşdirən bu təşkilat, 2016-cı ildə yayımladığı brifinqdə “AIPAC 60 ildən çoxdur maarifləndirmə səylərini artırmaq üçün çalışır. “ABŞ və İsrail üçün birlikdə gözəl bir gələcək quracağıq”” bəyanatını vermiş və ABŞ siyasətinin İsraillə əlaqəsini ortaya qoyaraq, gələcəkdə ABŞ-ın İsrailin təhlükəsizliyinə yönəlmiş qərarlar qəbul etməsini təmin etməyi hədəflədiyini vurğulamışdır (7, s. 113).

İsrailin baş naziri Benyamin Netanyahunun 2024-cü il iyulun 24-də ABŞ Konqresində çıxış etməsi üçün paytaxt Vaşinqtonun ev sahibliyi etməsinin arxasında da İsrail lobbisinin pioneri olan AIPAC dayanırdı. ABŞ-da səfərdə olan baş nazir bilir ki, ölkə daxilində siyasi mühasirəyə alınan və xaricdə hərbi cinayətlərin səbəbkarı kimi göstərilən Benyamin Netanyahu ABŞ-da bir qəhrəman kimi dəstəklənəcəkdir (12).

Benyamin Netanyahu Konqresdə çıxış edərkən, paytaxt Vaşinqtonda etiraz məqsədilə minlərlə insan toplaşmışdır. Onun çıxışını ayaq üstə alqışlayanlar olsa da, bir çox millət vəkili, etiraz olaraq, onun çıxışına qatılmaqdan imtina etmişdir (14). Qəzza zolağında baş verən qırğınlara baxmayaraq, Respublikaçılar Netanyahuya dəstəklərini əsirgəmirdilər. Demokratların sərt tənqidləri və boykotları isə şübhəsiz ki, Netanyahuya yaxından nəzarət edən AIPAC üçün gözlənilməz bir problem olmuşdur.

AIPAC 2023-cü il oktyabrın 7-də İsrailə edilən hücumdan sonra daha da möhkəmlənmiş və 2024-cü ildə 40 milyon dollarlıq hərbi büdcəyə sahib olmuşdur. 2024-cü il mart ayında, AIPAC illik toplantısını Vaşinqtonda keçirmişdir. Bu tədbir, ABŞ-ın İsrailə dəstəyi mövzusunda hökumət və siyasətçiləri bir araya gətirmişdir. Tədbirdə həmçinin ABŞ-ın siyasi liderləri ilə yanaşı, İsrailin yüksək səviyyəli rəsmiləri də iştirak etmişdir. Tədbirdə İsrailin təhlükəsizliyi, ABŞ-İsrail münasibətləri və regional məsələlər müzakirə olunmuşdur.

## 2. ABŞ-da yəhudi lobbisinin xarici siyasətə təsiri

Hər bir ölkədə lobbiçilik fəaliyyəti həyata keçirilsə də, siyasi, iqtisadi və hərbi gücünə görə ABŞ-da lobbiçilik fəaliyyəti daha geniş yayılmışdır və burada təsirli lobbilərin fəaliyyət göstərdiyi bir ölkədir. Bu gün ABŞ-ın siyasi həyatının bənzərsiz olduğu hər kəsə məlumdur. Amerika siyasi sisteminin mühüm qollarından biri olan lobbiçilik fəaliyyəti, qanunverici, icraedici və məhkəmə hakimiyyəti ilə yanaşı, digər sahələrdə də müxtəlif formalarda aparılır. İri transmilli korporasiyalar, keçmiş və hazırkı konqresmenlər, bankirlər, hüquqşünaslar, siyasi-ictimai xadimlər, qeyri-hökumət təşkilatları, fermerlər, iş adamları, etnik diasporalar və digər peşə sahibləri, imkanları daxilində lobbiçilik fəaliyyəti

ilə məşğul olurlar. ABŞ-da lobbistlərin fəaliyyətini tənzimləyən qanunlar arasında 1938-ci il "Xarici Nümayəndələrin Qeydiyyatı Haqqında", 1946 və 1995-ci illərdə isə "Lobbiçiliyin Açıq Xarakteri Haqqında" sənədlər xüsusi yer tutur.

Amerika siyasi sisteminə nəzər yetirsək, görərik ki, təsir qrupları arasında ən mühüm yeri yəhudi lobbisi tutur. Lobbinin əhəmiyyətli maliyyə resursları mövcuddur və bu resurslar. əsasən, lobbi üzvlərinin ianələrindən və ən əsası, biznes ictimaiyyətinin dəstəyindən gəlir. Əgər lobbinin ABŞ siyasi sistemini idarə edəcək gücü olmasaydı, bu gün İsrail və ABŞ münasibətləri bu qədər yaxın ola bilməzdi. İqtisadi məsələlər üzrə ekspertlər qrupu, ABŞ və İsrail arasında ticarət və investisiyaların necə daha da artırıla biləcəyi istiqamətində daim çalışır. 1978-ci ildən bəri, ABŞ və İsrail arasında kənd təsərrüfatı, elm və texnologiya sahəsində əməkdaşlıq əlaqələri qurulmuşdur. 1983-cü ildən etibarən isə, ABŞ və İsrail arasında birgə hərbi proqramların yaradılması, kəşfiyyat məlumatlarının paylaşılması, birgə tədqiqat və inkişaf fəaliyyətləri və ümumi xarici siyasət prinsiplərinin müəyyənləşdirilməsi məsələlərini əhatə edən strateji əməkdaşlığa başlanılmışdır (2, s. 271).

ABŞ siyasətində hansı partiyadan olmasından asılı olmayaraq, İsrailə və onun lobbilərinə dəstək və simpatiya var. Yəhudi lobbisi tək bir mərkəzi olmayan, geniş bir yelpazəyə bənzər təşkilat kimi qəbul edilə bilər. Amerika yəhudiləri ABŞ-ın xarici siyasətinə təsir edə bilmək üçün bir sıra lobbi təşkilatları qurmuşlar. ABŞ-dakı İsrail lobbisinin sağ qanadında "İsrail dərin Dövləti" adlandırılan Yəhudi Milli Təhlükəsizlik İnstitutu (JİNSA), Amerika Sionist Təşkilatı (ZOA), İctimaiyyətlə Əlaqələr İnstitutu və bir neçə digər önəmli təşkilatlar fəaliyyət göstərməkdədir. Paytaxt Vaşinqtonda ilk sıranı isə "Amerika-İsrail İctimai Əlaqələr Komitəsi (AIPAC)" tutur. Amerikada yaşayan bütün yəhudilər lobbinin üzvü deyillər, hətta bəziləri üçün İsrail o qədər önəmli bir mövqe tutmur. Məsələn, 2004-cü aparılan bir sorğu nəticəsində belə bir nəticə əldə edilmişdir. Belə ki, yəhudilərin 36%-nin İsraillə hər hansı bir sentimental bağının olmadığını və ya ümumiyyətlə bağlı olmadıqlarını bildirmişlər (9, s. 30).

ABŞ-ın Yaxın Şərqdəki əsas marağı bu ərazilərdəki neftə nəzarəti ələ keçirmək idi. İraqın sırf bu məqsədlə işğal olunması ABŞ-da öz təsdiqini tapmışdır. ABŞ-dakı Yəhudi lobbisi hər zaman İsrailin xeyrinə ABŞ xarici siyasətini formalaşdırmaqla məşğuldur. Buna görə də ictimai quruluşa sahib olan lobbinin bir neçə mərkəzi var və bir-birlərindən asılı olmayaraq, qərar verə bilirlər (10, s. 134-135). Yəhudi lobbisi ABŞ-ın siyasi proseslərində böyük uğur qazanır. Bu səbəbdən İsrailin maliyyələşdirmə ehtiyaclarını ödəmək üçün lazım olan kredit və qrantlara asanlıqla çıxışı var.

Londonda çıxan "Tayms" qəzeti ABŞ və İsrail münasibətlərini xarakterizə edərək hələ 1971-ci ildə yazmışdı ki, ABŞ ilə İsrail arasındakı münasibətlərin "Amerika tarixində misli-bərabəri olmamışdır. Bütün sahələrdə, müdafiə, iqtisadi əməkdaşlıq, kəşfiyyat məlumatları mübadiləsi, ikili təbəəlik və qarşılıqlı diplomatik yardım sahələrində olan bu əlaqələr, məsələn, Birləşmiş Ştatlarla Böyük Britaniya arasındakı əlaqələrdən çox-çox sıx olmuşdur". Bu dövrdə həmişə olduğu kimi, Birləşmiş Ştatların siyasi həyatında İsrail lobbisi olduqca mühüm rol oynayır, burada sionist yuxarı təbəqə ağalıq edirdi. İsrail lobbisi xeyli hissəsini öz nəzarəti altında saxladığı kütləvi informasiya vasitələrinin köməyi ilə rəsmi siyasətin və ictimai rəyin formalaşmasına fəal təsir göstərir (1, s. 165).

İsrail lobbisini güclü edən ən vacib fəaliyyətlərdən biri hər iki partiyanın namizədlərinə əhəmiyyətli dərəcədə ianə verməleridir. Buna görə, hansı namizəd seçilsə də, İsrail lobbisi öz istəklərini asanlıqla ifadə edə bilir (9, s. 36). Lobbinin yalnız ABŞ-ın xarici siyasətinə deyil, daxili siyasətinə də müdaxilələri qaçınılmazdır. Belə ki, lobbidəki əsas fiqurlar rəhbərlikdə olan hakimiyyəti hədəf alırlar. Məsələn, o vaxt İsrail tərəfdarı qüvvələr, yəhudi dövlətini tənqid edən insanların önəmli siyasi mövqeyə gəlmələrini əngəlləyirdilər. C.Karter G.Ballı dövlət katibi təyin etmək istəyirdi, amma onun İsraili tənqid edən biri olaraq tanındığını və lobbinin belə bir vəzifə təyinatına etiraz edəcəyini bilirdi (8).

İsrail lobbisi seçkilərdə namizədlərə vəsaitin əhəmiyyətli bir hissəsini bağışlayır. AIPAC rəsmi olaraq namizədi dəstəkləməsə də, namizədlərin səsvermə potensialının araşdırılması və təhlilini yaxşı bilir. Cədvəl 1-də, İraq müharibəsindən əvvəl İsrail lobbisi tərəfindən partiyalara verilən illik ianə məbləğləri göstərilmişdir (*Cədvəl 1*) (6, s. 214).

**Müharibədən əvvəl İsrail Lobbisinin ABŞ-da bağışladığı ianə məbləğləri (ABŞ dolları)**

***Cədvəl 1.***

| **İllər** | **Demokratlar** | **Respublikaçılar** | **Toplam məbləğ** |
|---|---|---|---|
| 1998 | *1.272.579* | *830.327* | 2.102.906 |
| 2000 | *1.125.715* | *776.189* | 1.901.904 |
| 2002 | *1.807.300* | *918.389* | 2.725.689 |

İsrail Amerikada lobbi fəaliyyəti nəticəsində özünə təhlükə hesab etdiyi bütün vəziyyətlər üçün ABŞ-ın xarici siyasətini istiqamətləndirərkən, ümumi təhlükə, ümumi maraq və ümumi təhlükəsizlik prinsiplərinə əsaslanır. İranın nüvə inkişafını, Yaxın Şərqdə özünə ən böyük təhlükə görən İsrail lobbi vasitəsilə ABŞ siyasətini yönləndirmək üçün bir sıra işlər görmüşdür.

Ərəb lobbisinin bir sıra təşkilatlarda təmsil olunmasına və kifayət qədər maliyyə potensialına baxmayaraq, ABŞ-ın Yaxın Şərq siyasətinə kifayət qədər təsir edə bilmir. Ərəb lobbisinin vahid fəaliyyət mexanizmi işlənib hazırlanmamışdır, çünki ərəbdaxili ziddiyyət və qarşıdurmalar mövcuddur. Məhz bu faktor da yəhudi lobbisinin yalnız regionda uğurla manevr etməsinə, həm də rəsmi Vaşinqtonun Yaxın Şərq siyasətinə güclü və hiss ediləcək təsir göstərməsinə əlverişli imkan yaradır (1, s. 201).

İsrail Amerikada lobbi fəaliyyəti nəticəsində özünə təhlükə hesab etdiyi bütün vəziyyətlər üçün ABŞ-ın xarici siyasətini istiqamətləndirərkən ümumi təhlükə, ümumi maraq və ümumi təhlükəsizlik prinsiplərinə əsaslanır. İranın nüvə inkişafını, Yaxın Şərqdə özünə ən böyük təhlükə görən İsrail, lobbi vasitəsilə ABŞ siyasətini yönləndirmək üçün bir sıra işlər görmüşdür. ABŞ-dakı İsrail lobbisi fərqli siyasi baxışlara mənsub olsa da, İsrailin təhlükəsizliyini dəstəkləyir və ABŞ-ın xarici siyasətini İsrailin maraqlarına uyğun istiqamətləndirə bilir.

Həmas bir yəhudi bayramı ərəfəsində və Yom Kippur müharibəsinin əllinci ildönümündən bir gün sonra – 7 oktyabr 2023-cü ildə İsrailə qarşı həyata keçirdiyi hücumları yəhudi lobbisi tərəfindən "barbarcasına" bir davranış kimi dəyərləndirdi (3, s. 116). Lobbinin fəaliyyəti Həmasın beynəlxalq aləmdə terror təşkilatı kimi tanınmasına yönəlmişdir. Onlar Həmasın Fələstin məsələsində nüfuzlu tərəf kimi qəbul edilməməsi üçün dövlətlərə və beynəlxalq təşkilatlara təzyiq göstərirlər.

Qəzza müharibəsində ABŞ tamamilə İsrailin tərəfini tutdu; təyyarə gəmiləri də daxil olmaqla hərbi yardımı Şərqi Aralıq dənizinə və Qırmızı dənizə göndərərək, nisbətsiz güc tətbiq edərək və hazırda Qəzzadan təxminən 35 min dinc fələstinlinin ölümünə və təxminən 2 milyon insanın yerdəyişməsinə səbəb olan İsraili tamamilə himayə etdiyi görünməkdədir (3, s. 119).

Qəzza hücumundan sonra İsrailə verilən qeyri-məhdud siyasi və hərbi dəstəyin arxasında 2024-cü ilin noyabr ayında keçirilən prezident seçkilərinə uyğun planlanmış bir məsələ olması hər kəsə bəlli idi. İsrail lobbisinin bütün səylərinə baxmayaraq, ABŞ administrasiyası keçmişdə olduğu kimi bu gündə öz mənfəətləri və qlobal siyasət məsələləri gündəmə gəldikdə İsrailə lazımlı xəbərdarlıqları etmək iqtidarındadır.

**Nəticə**

1948-ci ildə qurulduqdan dərhal sonra İsraili tanıyan ilk ölkə olan Amerika Birləşmiş Ştatları, İsraili keçmişdə olduğu kimi bu gün də dəstəkləyir. Keçmişdə Yaxın Şərq siyasətində Sovet İttifaqı ilə mübarizə aparan ABŞ, İsraili mühüm strateji tərəfdaş hesab edirdi və hazırda İsrailin sağ qalması və təhlükəsizliyi ABŞ üçün prioritetdir. Lobbi, qanuni mətnlərin hazırlanması proseslərinə təsir etmək, standartların təsdiqlənməsini və ya rədd edilməsini, müəyyən bir siyasi şəxsiyyətin seçki kampaniyalarına təsir göstərmək və qrupun maraqlarını qorumaq kimi məqsədlərlə yaradılan mütəşəkkil bir fəaliyyət olaraq təyin olunur. Buna görə, bu kontekstdə ABŞ-da yaşayan yəhudilərin İsrailin maraqları naminə təşkil etdikləri fəaliyyətlərə baxılır. Fəaliyyətindəki müvəffəqiyyəti sayəsində İsrail lobbisi ABŞ-ın ən nüfuzlu lobbilərindən birinə çevrildi. Buna müxtəlif amillər təsir edir. Lobbi ABŞ prezidentliyinə namizədlərə və siyasi partiyalara çox sayda ianə verir ki, bu da onların siyasi fəaliyyətinə kömək edir. ABŞ-da yaşayan çox sayda müjdəçi xristianlar, inanclarına görə, yəhudilərə rəğbət bəsləyir. Digər bir fikir isə, düşüncə mərkəzlərinin ABŞ siyasətinə təsir göstərməsidir və xüsusən də bəzi düşüncə mərkəzlərinin fəaliyyəti ABŞ siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Xüsusilə, yeni mühafizəkar fikirlərə sahib olan təşkilatların İsrail tərəfdarı siyasəti, İraq müharibəsində hərbi qərarın qəbul edilməsinə əhəmiyyətli təsir göstərmişdir. İraqın işğalı və Səddam administrasiyasının dekommunizasiyası neokonservatorlar arasında yeni bir layihə deyil, lakin ABŞ-ın əvvəlki administrasiyalarına bu mövzuda əhəmiyyətli bir təzyiq olduğu görünür. Bu, İraqdakı müharibənin əvvəllər öyrənilmiş bir ssenari ola biləcəyini göstərir. Yenə də PNAC kimi düşüncə mərkəzlərinin işçilərinin C.Buş administrasiyasının əsas heyətini təşkil etməsi, İsrail tərəfdarı düşüncə mərkəzlərinin ABŞ siyasətinə təsirini göstərir.

**ƏDƏBİYYAT**


1. Mustafayeva S., Qurbanova Ş., Cavadova Z. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər). Dərs vəsaiti. Bakı, 2011, 301 s. (http://www.anl.az/el/Kitab/Azf-264158.pdf).
2. Arı T. Amerikada siyasal yapı, lobiler ve dış politika. Bursa: Dora Basım-Yayın Dağıtım, 2015, 342 s.
3. Avaner T., Bozçalışkan A. İsrail lobisinin ABD dış politikasına etkisi: JINSA ve Filistin-Gazze Örnek Olayı // İstanbul Üniversitesi Hukuk Fakültesi Dergisi, 2024, Sayı: 20, s. 109-123.
4. Göktaş L. ABD'de siyonist lobiler ve etkileri. İstanbul: İNSAMER Rapor160, 2022. (https://www.insamer.com/tr/abdde-siyonist-lobiler-ve-etkileri-1.html).
5. Özgür M. AIPAC 'ın Amerikan Dış Politikasını ve İran Nükleer Müzakerelerini Etkileme Siyaseti // Siyasal Bilgiler Fakültesi Dergisi, 2016, Sayı: 1(2), s. 111-146.
6. Umerova Z. Yahudi Lobisinin ABD İçindeki Konumu ve Ortadoğu Politikasındaki Rolu. Ankara: Pozitif Yayınları, 2006, 265 s.
7. Yenal S. İsrail lobicilik faaliyetlerinin Amerikada gelişimi ve lobinin 2003 Irak savaşına etkisi // SAVSAD Savunma ve Savaş Araştırmaları Dergisi, 2020, Sayı: 30 (2), s. 209-226.
8. Brinkley D. Out of the Loop. The New York Times Magazine, 2002, 48 p.
9. Cohen M.S. The 2004 National Survey of American Jews. The Jewish Agency for Israel's Department of Jewish. California: Journal of Palestine Studies, 2005, August 18 - September 1, 30 p.
10. Mearsheimer J.J., Walt S.M. The Israel Lob by and U.S. Foreign Policy. New York: First Edition, 2007, 36 p.
11. Mearsheimer J.J., Walt S.M. The Israel Lobby and U.S. Foreign Policy // New York: Middle East Policy Council, 2009, pp. 134-135.
12. https://www.aa.com.tr/tr/analiz/amerikan-siyasetinde-dizginler-yahudi-lobisi-aipacin-elinde/3296398

13. https://turkiyearastirmalari.org/2024/07/01/fokus/fokus-amerikan-dis-politikasi-ve-israil-lobisi/
14. https://www.bbc.com/news/videos/cgxqp3p2ep8o
15. https://www.haaretz.com/us-news/2024-06-26/ty-article/.premium/in-landmark-win-for-pro-israel-groups-bowman-loses-ny-primary-after-aipacs-record-spend/00000190-51b0-ddd9-a1f1-d3f269450001
16. https://www.haaretz.com/us-news/2024-02-28/ty-article-magazine/.premium/aipac-explained-the-inside-story-of-americas-powerful-and-divisive-pro-israel-lobby/0000018d-e4ac-d972-a5bf-efaf96c60000



***Резюме***

***Нигяр Гаджиева***

***Еврейское лобби в США***

Активизация новых акторов в современных международных отношениях оказывает значительное влияние на принятие внешнеполитических решений государствами, в ряде случаев даже ставя их в определённую зависимость. К числу таких акторов относятся неправительственные организации, общественные и национально-освободительные движения, а также деятельность лоббистских структур. Особенно заметно расширение лоббистской активности в ведущих государствах международной системы.

Сегодня лоббизм открыт и признан во многих странах мира, а также получил правовое регулирование, в частности, в США, где лоббистская деятельность имеет давние и устойчивые традиции. Евреи, проживающие в США, считают своей обязанностью служить интересам Израиля, действуя организованно и целенаправленно. Ряд организаций оказывает влияние на внутреннюю и внешнюю политику США через лоббистскую активность.

Еврейское (израильское) лобби является одним из наиболее влиятельных факторов в политических процессах Соединённых Штатов. Благодаря широкой поддержке политиков и партий, оно оказывает существенное влияние на внешнюю политику страны. По мнению ряда исследователей, израильское лобби – одно из самых могущественных в США. Его значение и роль в формировании внешней политики государства трудно переоценить.

Среди целей лоббистской деятельности также значатся укрепление позиций еврейской диаспоры в США и за их пределами, а также активное участие в политической жизни. Израильскому лобби удалось добиться заметных успехов в структурировании политики США, что позволяет Израилю получать кредиты, финансовую помощь и иные ресурсы, необходимые для его безопасности и развития.

Израильское лобби в США активно содействует обеспечению устойчивой поддержки Израиля, направляя американскую внешнюю политику в нужном русле. В обозримом будущем вряд ли следует ожидать изменения позиции ни со стороны президента США, ни со стороны Конгресса в вопросе поддержки Израиля.


**Ключевые слова:** *лоббизм, Израиль, США, израильское лобби, внешняя политика, AIPAC*


***Summary***

***Nigar Hajiyeva***

***Jewısh Lobby ın the Unıted States***

The activation of new actors in modern international relations affects the adoption of foreign policy decisions by states, and in many cases even makes the state dependent on them. Among such actors, we can mention non-governmental organizations, social movements, national liberation movements, as well as lobbying activities. In particular, there is an expansion of lobbying in the leading states of the international relations system. The lobby is already open in many countries of the world, but at the same time it has found its legal regulation in many countries. Lobbism as a whole can be regarded as a natural process for the implementation of the set goals inherent in a certain level of development of society.

Thus, along with the United States, where the lobby operates widely and has a long history, lobbying has been legalized in countries located in Europe, America and other continents. Jews living in the United

States consider it their duty to serve the interests of Israel by acting in an organized manner. They try to influence US policy by lobbying within some organizations. They carry out various lobbying activities in the US. The Jewish lobby is one of the most important factors affecting political processes in the US, thanks to its great support for politicians and political parties in the United States. The Israeli lobby, according to many authors, is the most powerful lobby in the United States. The influence of the importance and role of the lobby in US foreign policy is undeniable. There are many reasons and reasons for this. In addition, among the goals of the lobby is to increase the life and political participation of Jews around the world, as well as in the United States.

The Israeli lobby has made great strides in structuring US policy. Therefore, Israel is able to receive the necessary loans and donations for lobbying activities. In the United States, the Israeli lobby supports the existence and security of Israel and is able to direct United States foreign policy in accordance with Israeli interests. In the future, neither the United States president nor the Congress should be expected to change its support for Israel.

**Key words:** *Lobbism, Israel, USA, Israeli lobby,foreign policy, AIPAC*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.